2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan qərar və hərəkətlərdən (hərəkətsizliklərdən) şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Nailə Əsgərovanın Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 fevral 2025-ci il tarixli 46 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri                                        11 fevral 2025-ci il

Mən, ekspert qrupunun üzvü Nailə Əsgərova 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 58 saylı Xaçmaz kənd seçki dairəsinin Xudat bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Əliyev Həsən Cabbar oğlunun səsvermə günü adıçəkilən bələdiyyəni əhatə edən seçki məntəqələrində baş verməsi iddia edilən qanun pozuntularının araşdırılmasına və bununla bağlı müvafiq tədbirlərin görülməsinə dair 10 fevral 2025-ci il tarixli 46 saylı şikayətini nəzərdən keçirərkən müəyyən etdim:

Daxil olmuş müraciət seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə verilmiş və bu səbəbdən də şikayət etmiş şəxsə geri göndərilməlidir.

Belə ki, Seçki Məcəlləsinin 112.1-ci maddəsinə görə, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilər.

Seçki Məcəlləsinin 112-1.14.1-ci maddəsinə əsasən, şikayət qanunla müəyyən olunmuş qaydada və müddətdə, yəni qərardan, hərəkətin (hərəkətsizliyin) baş verməsindən və ya maraqlı tərəfin xəbərdar olmasından sonra 3 gün ərzində daxil olmalıdır.

Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 58 saylı Xaçmaz kənd seçki dairəsinin Xudat bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Əliyev Həsən Cabbar oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 fevral 2025-ci il tarixli 46 saylı müraciəti qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə verildiyindən şikayət etmiş şəxsə geri göndərilsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü

Nailə Əsgərova